Azadlıq Radiosu

AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Qazaxıstan və Azərbaycan Xəzərdə sərnişin daşımalarını bərpa edir

indicə




Bərə (Foto arxiv)

Qazaxıstan Azərbaycana Kurık-Bakı-Kurık bərə xətti üzrə sərnişindaşımaların bərpasını təklif edib. Azərbaycan bu təşəbbüsü dəstəkləyib. Bunu Qazaxıstanın Azərbaycandakı səfiri **Alim Bayel** bildirib. Hazırda iki ölkənin nəqliyyat qurumları əlaqənin bərpası üzərində işləyirlər.

2020-ci llədək bu marşrut üzrə sərnişindaşımalar həyata keçirilib. Koronavirus pandemiyasına görə həmin il daşımalar dayandırılıb. Xətt bağlanmazdan əvvəl Xəzər dənizi üzərindən hər il təxminən 1500 sərnişin bərələrdən istifadə edirdi.

Bayel deyib ki, daşımaların bərpası Qazaxıstanla Azərbaycan arasında turist mübadiləsini artırmalıdır. Çindən Avropaya Orta Asiya, Xəzər dənizi, Cənubi Qafqaz və

Türkiyə üzərindən uzanan nəqliyyat marşrutu olan Orta Dəhlizin də imkanları genişlənməlidir.

Hazırda Bakı ilə Astana, Almatı, Şımkent, Aktau və Atırau arasında 37 aviareys həyata keçirilir.

Qazaxıstanla Azərbaycan arasında bərə əlaqəsi pandemiyadan əvvəl də mövcud olub. O vaxt bərələr əsasən yük daşıyır, sabit cədvəl üzrə hərəkət etmir, kifayət qədər yük toplandıqdan sonra yola düşürdü. Sərnişin daşınması isə ikinci dərəcəli sayılırdı.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur